**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# YENİ DÖVR AMERİKA UŞAQ ƏDƏBİYYATI (1970-1990-cı illər)

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ABŞ ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Turanə Madar qızı Abdullayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Bakı Mühəndislik Universitetinin İngilis dili kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Şahin Həmid oğlu Xəlilli**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Nigar Vəliş qızı İsgəndərova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Səkinəxanım Fazil qızı Vəliyeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Ülviyyə Çingiz qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının bazasında yaradılmış BFD 4.12 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, akademik
**Kamal Mehdi oğlu Abdullayev**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Nuranə Məcid qızı Nuriyeva**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Amerika uşaq ədəbiyyatının tarixi, keçdiyi tarixi inkişaf mərhələləri, xüsusilə XX əsrin 70-90-cı illərində yeni dövrün inkişaf mərhələlərinin tədqiqi, çağdaş ədəbiyyatşünaslıq elminin qarşısında duran əhəmiyyətli və aktual məsələlərdən biridir. Uşaq ədəbiyyatının təşəkkülü tarixi dünyanın bir sıra ölkələrində olduğu kimi Amerikada da hələ yetərincə öyrənilməmişdir. Lakin şifahi xalq ədəbiyyatına aid olan nağıl, tapmaca, laylaların bir zamanlar həqiqətən də uşaqlara ünvanlandığı bu ədəbiyyatın tarixən qədim olduğuna dəlalət edir. Amerika uşaq ədəbiyyatının Avropa və Asiya xalqlarının ədəbiyyatından gənc olduğu tarixi gerçəklik kimi qəbul edilə bilər. Lakin uşaq ədəbiyyatı tarixinin öyrənilib araşdırılması bu ədəbiyyatın zəngin ədəbi-bədii nümunələrinin heç də ümumi ədəbiyyatdan geri qalmadığını söyləməyə əsas verir.

Müasir dövrdə uşaq ədəbiyyatına olan maraqla yanaşı bu ədəbiyyata dair araşdırmaların sayı artmaqdadır. Əslində uşaq ədəbiyyatının elmi araşdırılmasına XX əsrin ortalarında başlanılmışdır. Məhz bu əsrin 70-ci illərinin sonlarından başlayaraq uşaq ədəbiyyatına dair fundamental araşdırmalar, bu ədəbiyyatın nəzəri perspektivlərinin müəyyənləşdirilməsində müəyyən qədər baza rolunu oynamışdır. 1970-ci ildə "Siqnal" adlı uşaq jurnalının Britaniyada, 1972-ci ildə "Uşaq ədəbiyyatı" jurnalının ABŞ-da əsası qoyulmuşdur. 1973-cü ildə Amerikada Uşaq Ədəbiyyatı Assosiasiyası (Children's Literature Association) yaradılmış və bu Assosiasiya illik uşaq ədəbiyyatı konfranslarının keçirilməsini ənənəyə çevirərək bu sahədə qrantların təyin edilməsinə dəstək olmuşdur. Son dövrdə ABŞ-da, Kanadada və Böyük Britaniyada uşaq kitablarının müəlliflərinə və uşaq kitablarının illüstratorlarına verilən mükafatlar nüfuzuna görə xüsusi yeri ilə seçilir. ABŞ-da 1922-ci ildə əsası qoyulan Nyuberi mükafatı, 1937-ci ildən təsis edilən Kaldekott medalı və eyni ildən Britaniyada verilən Britaniya Karnegi medalı uşaq ədəbiyyatı arealında seçilən və sevilən yazarlara verilir. Piter Hantın (Peter Hunt, 1945) 2000-ci ildə nəşr etdirdiyi "1801-1902-ci illər uşaq ədəbiyyatı antologiyası" ("Children's

Literature Anthology 1801-1902”) və 2005-ci ildə “Uşaq ədəbiyyatının Norton antologiyası” (“Norton Anthology of Children’s Literature”) uşaq ədəbiyyatının öyrənilməsində mühüm əhəmiyyəti ilə seçildi, gənc tədqiqatçıları uşaq ədəbiyyatı məsələlərini diqqətlə öyrənməyə təhrik etdi. Bu əsərlər uşaq ədəbiyyatının xronoloji ardıcıllıqla bütün dövrlərini əhatə edir. Bundan əlavə 30 mart 1967-ci il tarixindən başlayaraq hər il aprelin 2-si Uşaqların Beynəlxalq kitab günü kimi qeyd edilir. Bu günün seçimi isə uşaq ədəbiyyatının korifeyi, danimarkalı yazıçı Hans Xristian Andersenin (Hans Christian Andersen, 1805-1875) doğum günü ilə əlaqələndirilir.

Qeyd edək ki, uşaq ədəbiyyatından bəhs edən elmi araşdırmalar, eləcə də bir sıra ölkələrdə, o cümlədən Böyük Britaniyada, ABŞ-da uşaq ədəbiyyatı barədə aylıq, rüblük Beynəlxalq tədqiqat məcmuələrinin çapı tələbə və tədqiqatçılar üçün mühüm əhəmiyyət kəsb edir. Mədəni və ədəbi nəzəriyyələrin, müqayisəli ədəbiyyat məsələlərinin, uşaq ədəbiyyatının dünya ədəbiyyatı kimi tanıtdırılmasında misilsiz rolu vardır. Daim genişlənən, vüsət alan uşaq ədəbiyyatı, eləcə də uşaq ədəbiyyatı məsələlərinin öyrənilib araşdırılması Azərbaycan uşaq ədəbiyyatının strategiyasının müəyyənləşdirilməsində mühüm əhəmiyyət və aktuallıq kəsb edir.

İndi dünyada uşaq ədəbiyyatının inkişafı üçün bir sıra tədqiqat mərkəzləri fəaliyyət göstərir. ABŞ-da Uşaq Ədəbiyyatı Assosiasiyası ilə yanaşı Florida Universitetində “Uşaq ədəbiyyatı və mədəniyyəti mərkəzi” (“The Center for Children’s Literature and Culture”), San Dieqo Dövlət Universiteti nəzdində “Uşaq ədəbiyyatının öyrənilməsi üçün milli mərkəz” (“National Center for the Study of Children's Literature”), İngiltərədə Kembric Universitetində “Uşaq ədəbiyyatının tədqiqi mərkəzi” (“Center for Research in Children’s Literature”), Roehampton Universitetində “Uşaq ədəbiyyatı milli tədqiqat mərkəzi”nin (“National Center for Research in Children’s Literature”) əsas məqsədi uşaq ədəbiyyatı sahəsində araşdırıcıları bir yerə toplayıb, uşaq ədəbiyyatında baş verən yenilikləri oxucu diqqətinə çatdırmaqdır.

Amerika uşaq ədəbiyyatı ilə tanışlıq belə bir fikri söyləməyə zəmin yaradır ki, tədqiqatçıların o qədər də ciddi maraq cevrəsində olmayan uşaq ədəbiyyatı 1970-ci illərdən başlayaraq təxminən son

50 ildə daha geniş planda ciddi elmi əhəmiyyəti və aktuallığı ilə gündəmə gətirilmişdir. Ciddi sosial və siyasi mövzuları özündə ehtiva edən, “uşaqlıq” və “uşaq” məsələlərinin ən incə mətləblərinin, hətta “böyüklər” dünyasının çox-çox problemlərinin həllində məhz uşaqların böyük qüvvə olduğunu oxucuya aşılayan uşaq ədəbiyyatının tanınmış simalarının yaradıcılığının müqayisəli ədəbiyyat çevrəsində tədqiqi ciddi elmi əhəmiyyəti və aktuallığı ilə diqqəti cəlb edir. Çağdaş Azərbaycan ədəbiyyatşünaslığında həm ingilisdilli ədəbiyyatın konkret inkişaf mənzərəsinin, onun inkişaf istiqamətlərinin, ayrı-ayrı yazıçı və şairlərinin yaradıcılığına xas konkret məsələlərin, həm də müqayisəli ədəbiyyat kontekstində bu və ya digər yazarın yaradıcılığının spesifik paralellərinin öyrənilməsi ədəbi-tənqidi fikrin yüksəlişinə xidmət edir. Bu baxımdan mərhum ədəbiyyatşünas, prof. Zeydulla Ağayev, filologiya elmləri doktorlarından prof. Aynur Sabitova, Nigar İsgəndərova, Nailə Sadıqova, filologiya üzrə fəlsəfə doktorlarından Nuranə Nuriyeva, Səkinəxanım Vəliyeva, Ülkər Şəfiyeva, Kəklik Gözəlova, Ülviyyə Əliyeva, Gilə Hüseynli, Müşfiq Babayev, Arif Əsədov, Yusif Əliyev və başqalarının elmi-tədqiqat işləri, monoqrafiya, dərs vəsaitləri Azərbaycan – Amerika qarşılıqlı ədəbi əlaqələrində yeni mərhələ sayıla bilər. Lakin Amerika uşaq ədəbiyyatı məsələləri dünyanın bir çox ölkələrində, o cümlədən ABŞ-da, demək olar ki, ümumi ədəbiyyatın araşdırılması ilə müqayisədə az tədqiq olunmuşdur. Bu baxımdan Amerika tədqiqatçılarından Karin Bit Lesnik-Oberşteyn, Mətson Kristina Filips, rus tədqiqatçılarından isə Nenilin Aleksandr Qennadyeviç, Belova Anastasiya Oleqovna və başqaları Amerika uşaq ədəbiyyatının bu və ya digər məsələlərinə dair elmi araşdırmalar aparmışlar[1]. Lakin dünya tarixi və ədəbi düşüncəsində özünəxas yeri

---

[1] Karin Beate Lesnik-Oberstein. Principles and Practice in Critical Theory. Children’s Literature: /A Thesis Submitted to the University of Bristol in accordance with the Requirements for the Degree of Doctor of Philosophy in the Faculty of Social Sciences, School of Education. Doctoral Thesis./ – The University of Bristol: September 1990, – 236 p // URL:http://research–information.bristol.ac.uk; Mattson, Christina Phillips. Children’s Literature Grows Up: / Dissertation for the degree of Doctor of Philosophy in the Subject of Comparative Literature/ –Harvard University: Cambridge, Massachusetts. – May, 2015. – 390 p.; Ненилин Александр Геннадьевич. С.Кинг и проблемы детства

olan XX əsrin 1970-1990-cı illərində Amerika uşaq ədəbiyyatı məsələləri müstəqil tədqiqat obyektinə çevrilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Yeni dövr Amerika uşaq ədəbiyyatının 1970-1990-cı illər mövcud elmi-nəzəri prinsiplərinin konstruktiv dəyərlərlə zənginləşməsi, onun əsas inkişaf istiqamətləri bazasında nəsr, poeziya və uşaq dramlarının bədii sənət orijinallığı, təsvir və ifadə rəngarəngliyinin araşdırılması tədqiqat işinin obyektini təşkil edir. Araşdırmanın predmetini isə 1970-1990-cı illər Amerika uşaq ədəbiyyatının tədqiqi və təhlili müstəvisində gəlinən nəticələrin sistemləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Amerika uşaq ədəbiyyatının ümumi inkişaf mərhələləri fonunda 1970-1990-cı illərdə elmin inkişaf edən bütün sahələri ilə yanaşı Amerika uşaq ədəbiyyatının əsas parametrlərini müəyyənləşdirməkdir. Bu bir daha uşaq ədəbiyyatının dünya ədəbiyyatında ayrıca sahə kimi inkişafına təkan verir. Mövzu ilə əlaqədar aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

– Amerika uşaq ədəbiyyatının yaranmasına təkan verən ictimai-siyasi amilləri, ədəbiyyat sahəsində geniş yayılmış mövzuları araşdırıb təhlil etmək;

– XX əsrin əvvəllərindən başlayaraq uşaq ədəbiyyatı sahəsində geniş yayılmış şəkilli kitablar və komikslərlə bağlı mövcud elmi-nəzəri ədəbiyyatın əsas meyarlarını müəyyənləşdirmək;

– Amerika uşaq nəsrində Uilyam Edvard Burhart Du Bois və Mildred Teylorun əsərlərində multikulturalizm ideyalarını ön plana çəkərək ölkədə uşaqların azad yaşamaq hüquqlarını aşkarlamaq;

– Amerika uşaq ədəbiyyatında şeir və nəsrin tarixinə nəzər salaraq bu sahədə öz sözünü demiş yazarların yaradıcılığında əsas motivləri təqdim və təhlil etmək;

---

в англо-американской литературной традиции: /дисс. кандидата филологических наук/ [Электронный ресурс] /– Нижний Новгород, 2006. – 177 с. URL: http://chtloveknauka.com/s. pdf; Белова Анастасия Олеговна. Творчество Луизы Мэй Олкотт в контексте детской литературы Англии и США второй половины XIX – начала XX вв.: /дисс. кандидата филологических наук/ [Электронный ресурс] / – М.: МГПУ, 2013. – 244 с. URL: http://dslib.net/literatura-mir.pdf

– Amerika uşaq dramaturgiyasının tarixinə nəzər yetirib, XX əsrin ikinci yarısında bu sahədə olan yeniliklərin səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmək, bu sahədə fəaliyyəti ilə tanınan dramaturq Syuzan Zederin Azərbaycan ədəbi auditoriyası ilə yaradıcılıq əlaqələrini müəyyənləşdirmək;

– Amerikada uşaq ədəbiyyatının təsir etdiyi mədəniyyət sahələrini araşdırıb, filmlər, xüsusilə də Uolt Disney filmlərinin özəlliklərini təyin etmək;

– XX əsrin 70-90-cı illərində Amerika uşaq ədəbiyyatına həsr olunmuş araşdırmada bu ədəbiyyatın orijinal mənbələr əsasında onun inkişaf məntiqini ictimai-tarixi faktlarla ədəbi-elmi təhlilin vəhdətini yaratmaq.

**Tədqiqat metodları.** Dissertasiya işində müqayisəli, bioqrafik, tarixi metodlardan və diskurs təhlilindən istifadə edilmiş, araşdırmanın elmi və nəzəri müddəaları ingilis, ingilisdilli mənbə və məxəzlər zəminində əsaslandırılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Amerika uşaq nəsrinin yaranma tarixi və inkişaf mərhələlərinin ümumi səciyyəsi verilir;

2. Şəkilli kitabların və komikslərin Amerika uşaq ədəbiyyatında yaranması və XX əsrin II yarısında, xüsusilə 70-90-cı illərdə bu sahənin inkişafı, Arnold Lobel yaradıcılığında şəkilli kitablar fonunda uşaq şəxsiyyətinin formalaşmasında mühüm rolu və əhəmiyyəti təyin edilir;

3. Amerika multikultural uşaq nəsrinin yeni inkişaf mərhələsində Uilyam Edvard Burhart Du Bois və Mildred Teylor yaradıcılığının uşaq ədəbiyyatında yeri müəyyənləşdirilir;

4. XX əsrin II yarısında yazıb yaratmış Meri Ann Hobermən, Merilin Nelson və Arnold Spilkanın yaradıcılığı əsasında uşaq şeirinin spesifik xüsusiyyətləri araşdırılır;

5. XX əsrin II yarısında, xüsusilə 70-90-cı illərdə Amerika uşaq dramaturgiyasının inkişafı və səciyyəvi xüsusiyyətləri aşkar edilir;

6. XX əsr Amerikada uşaq mədəniyyətinin inkişafı, uşaq ədəbiyyatının bu sahəyə təsiri məsələlərinin təhlili və ümumiləşdirmələri aparılır.

**Tədqiqatın elmi yeniliyi**. Multikultural dövlət hesab edilən ABŞ-da uşaq ədəbiyyatının daha çox XX əsrin 70-90-cı illərində keçdiyi inkişaf mərhələsi haqqında müəyyən ədəbi-elmi təsəvvürün yaradılması və bu ədəbiyyatın əsas qayə və məqsədlərinin müəyyənləşdirilməsi tədqiqat işinin elmi yeniliyini təsbit edən amillərdən biridir. Spesifik qanunları və kriteriyaları ilə qeyd olunan mərhələ uşaq ədəbiyyatının təşəkkülü bazasında, onun inkişaf mərhələləri ilə yanaşı əsasən dünya uşaq ədəbiyyatı kontekstində çağdaş Amerika uşaq ədəbiyyatının axtarış meyllərinin və onları fərqləndirən bədii sənətkarlıq xüsusiyyətlərinin araşdırılması tədqiqat işinin ədəbi əlaqələr kontekstində daha əhatəli şəkildə öyrənilməsində yenilik aktı hesab edilə bilər. Azərbaycan elmi, ədəbi-tənqidi fikri üçün vacib və aktual olan bu mövzunun ilk dəfə monoqrafik şəkildə araşdırılması gələcəkdə Amerika uşaq ədəbiyyatının digər aktual məsələlərinin əhatəli şəkildə öyrənilib araşdırılmasında baza rolunu oynaya bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Müasir qloballaşan dünyada Amerika uşaq ədəbiyyatının öyrənilməsi və tədqiqi həm nəzəri, həm də praktik cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Tədqiqat işi yeni dövr Amerika uşaq ədəbiyyatının 1970 – 1990-cı illərdəki axtarış meylləri və müəyyən ziddiyyətləri ilə seçilən ədəbiyyatın yüksəlişini, yaxud intibahını öyrənmək baxımından nəzəri fikirlərin ümumiləşdirilməsini özündə ehtiva edir. Amerika uşaq ədəbiyyatının ədəbi-mədəni təkamülü, qeyd olunan mərhələyə xas bədii, poetik materialların çağdaş dövrlə əlaqəli təhlili elmi-nəzəri baxımdan əhəmiyyətli hesab edilə bilər.

Tədqiqat işinin praktik əhəmiyyətinə gəlincə isə onu qeyd edək ki, araşdırmanın materialları Respublikamızın ali məktəblərində seçmə fənn kimi tədris olunan "Uşaq ədəbiyyatı"nın öyrənilməsində faydalı vəsait kimi istifadə oluna bilər

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın elmi yenilikləri, əsas tezis və elmi nəticələri Beynəlxalq və regional elmi konfranslarda, məruzələrdə əksini tapmış, konfrans materiallarında, xarici ölkələrdə və Azərbaycan Respublikasında elmi jurnal və məcmuələrdə çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Bakı Mühəndislik Universitetinin İngilis dili kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi Giriş, 3 fəsil, Nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 6 səhifə, 11115 işarə, I fəsil 55 səhifə, 109214 işarə, II fəsil 50 səhifə, 93429 işarə, III fəsil 29 səhifə, 55685 işarə, Nəticə 3 səhifə, 5162 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 274605 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar açıqlanır, habelə işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **"Amerika uşaq ədəbiyyatının təşəkkülü və inkişaf mərhələləri"** adlanan **I fəsli**nin ***"Amerikanın müasir uşaq nəsri"*** adlı birinci yarımfəslində qeyd edilir ki, Amerika uşaq ədəbiyyatında daha çox Qərbi Avropa ədəbiyyatının tarixi izlərini görmək mümkündür. Azərbaycanlı ədəbiyyatşünas, professor Qorxmaz Quliyev yazır: *"Amerika ədəbiyyatının köklərini Avropa ədəbiyyatlarında, ilk növbədə, əlbəttə ki, ingilis ədəbi-bədii fikrində axtarmaq düzgün olardı"*[2].

ABŞ-da uşaq kitabının nəşrinin əsası XVIII əsrdə Britaniyada uşaq ədəbiyyatının banisi adına layiq görülmüş naşir və yazıçı Con Nyuberi (John Newbery, 1713-1767) tərəfindən qoyulmuşdur. Amerika uşaq ədəbiyyatına aid ilk dərslik 1656-cı ildə "Boston və İngiltərə körpələri üçün mənəvi süd" ("Spiritual Milk for Boston Babe: in Either England") adlı kitabı hesab edilmişdir. Bu əsər əslində 1646-cı ildə İngiltərədə "Qəlblərin qidası üçün hər iki

[2] Quliyev, Q. Amerika ədəbiyyatı: Tarixi oçerklər / Q.Quliyev, Ü.Əliyeva. – Bakı: "Elm və təhsil", – 2016. – s.4.

vəsiyyətin sinəsi" ("The Breast of Both Testaments for their Soul's Nourishment") adı altında nəşr olunmuşdur. Daha sonra kitab bir neçə dəyişiklik və əlavələrlə dərslik kimi Amerikada yenidən çap edilmişdir. Dərsliyin əsas mövzusunun dini ayinlərə və mövzulara həsr olunmasına baxmayaraq, bura əlifba, leksik materiallar və şeir nümunələri də daxil edilmişdir[3].

Amerika ədəbiyyatının inkişafı dedikdə, bu ədəbiyyatın XVIII əsrdən başlayaraq müasir günlərimizə qədər keçdiyi inkişaf yolu nəzərdə tutulur. Maarifçilik ədəbiyyatının görkəmli nümayəndələri olan Conatan Edvards (Jonathan Edwards, 1703-1758), Bencamin Franklin (Benjamin Franklin, 1706-1790), Tomas Peyn (Thomas Paine, 1737-1809), Tomas Cefferson (Thomas Jefferson, 1743-1826), Filip Freno (Philip Freneau, 1752-1832) Amerika ədəbiyyatının aparıcı simaları olmuşlar. XVIII əsrin sonlarında Amerika ədəbiyyatında roman janrı yaranmışdır. Hyu Henri Brekenric (Hugh Henry Breckenridge,1748-1816) və Çarlz Brokden Braun (Charles Brockden Brown, 1771-1810) Amerika ədəbiyyatında bu janrda yazan ilk sənətkarlar kimi dəyərləndirilmişdir[4].

Amerika ədəbiyyatında romantik dövr XIX əsrin ikinci onilliyindən başlayaraq 60-cı illərin sonlarına qədər davam etmişdir. Daha çox Vaşinqton İrvinq (Washington Irving, 1783-1859), Nataniel Hotorn (Nathaniel Hawthorne, 1804-1864), Henri Lonqfello (Henry Longfellow, 1807-1882), Edqar Allan Po (Edgar Allan Poe, 1809-1849), Herman Melvill (Herman Melville, 1819-1891) kimi amerikan şair və nasirləri romantizm mərhələsində yazıb yaratmışlar. Romantiklər arasında Nataniel Hotorn, Edqar Allan Po böyüklərlə yanaşı uşaqlar üçün də bir sıra hekayə və şeirlər yazmışlar.

XIX əsrin 70-ci illərindən başlayaraq Amerika ədəbiyyatında realizm cərəyanı təşəkkül tapmağa başlamışdır. Realizm cərəyanının görkəmli nümayəndələri arasında Ceyms Rassel Louell (James Russell Lowell, 1819-1891), Mark Tven (Mark Twain, 1835-1910), Frənsis Brett Hart (Francis Brett Hart, 1836-1902), və Henri Ceymsi (Henry

---

[3] Huck, C.S. Children's Literature in the Elementary Schools / C.S.Huck, S.Helper, J.Hickman.– New York: Holt, – 4th ed. – 1987. – 541 p.

[4] Cullinan, B.J. Literature and the Child / B.J.Cullinan. 2nd edition. – New York: Harcourt, – 1989. – 117 p.

James, 1843-1916) göstərmək olar. Mark Tven oxuculara daha çox "Haklberi Finnin macəraları" və "Tom Soyyerin macəraları" adlı romanları ilə yaxşı tanışdır. Tanımış Amerika yazıçılarından Uilyam Folkner Mark Tveni Amerika ədəbiyyatının "atası", Ernest Heminquey isə müasir Amerika ədəbiyyatının ədibin "Haklberi Finnin macəraları" romanından "yarandığını" söyləmişdir[5].

Amerikada XX əsrin II yarısında yazılan uşaq ədəbiyyatı ənənəvi mövzulardan bir qədər uzaqlaşmağa başlamışdır. 1972-ci ildə Şarlotta Zolotov (Charlotte Zolotow, 1915-2013) tərəfindən yazılmış, illüstrasiyaları isə Uilyam Pene du Bois (William Pène du Bois, 1916-1993) tərəfindən çəkilmiş "Uilyamın gəlinciyi" ("William's Doll") əsəri oxucu auditoriyasında kişi qəhrəmanlar üçün yaradılan ümumi stereotipi alt-üst etmişdir.

XX əsrin II yarısından başlayaraq Amerika uşaq ədəbiyyatında genderlə yanaşı irqçilik mövzusu da geniş yer almağa başlamışdır. Amerikalı tədqiqatçı Alan Okada (Alan Okada) uşaq ədəbiyyatından söhbət açaraq irqçilik mövzusuna xüsusi yer ayırmışdır. O, Amerika yazıçısı Marjori Ənn Ueybillin (Marjorie Ann Waybill) "Çinli gözləri" ("Chinese Eyes") adlı əsərini nümunə gətirərək irqçiliyə qarşı insanları fəal şəkildə mübarizəyə çağırmışdı[6].

XX əsrin 70-90-cı illərində amerikan uşaq nəsrində populyarlıq qazanmış irqçilik mövzusu Cudi Blumun (Judy Blume, 1938) əsərlərində geniş şəkildə bədii əksini tapmışdır. Xanım yazıçı 90-dan çox mükafata sahib olmuşdur. Cudi Blumun uşaqlar üçün yazdığı "Dördüncü dərəcəli cəfəngiyyat nağılları" ("Tales of a Fourth-Grade Nothing"), "Əbədi" ("Forever"), "Pələng gözləri" ("Tiger Eyes"), "İqqinin evi" ("Iggie's house") kimi əsərləri Amerika uşaq ədəbiyyatında uşaqların, eləcə də böyüklərin sevdiyi əsərlər sırasına daxil olmuşdur. Yazıçı "İqqinin evi" əsərində irqçilik mövzusuna toxunmuşdur. Onun əsərində paylaşdığı ideyaları oxucunu köhnəlmiş irqçiliklə bağlı fikirlərdən uzaqlaşdırmaq və insanlar arasında irqi bərabərliyi təmin etməklə bağlıdır.

---

[5] Abdullayeva, T.M. Amerika uşaq nəsrinin yaranma tarixi // – Baku, Journal of Baku Engineering University, Philology and Pedagogy, – 2017. – s.194-199.

[6] Alan Okada. How Children's Books Distort the Asian American Image / – Interracial Books for Children, – 1976. – 23 p.

Araşdırmanın I fəslinin ***"Şəkilli kitablar və komikslər (Arnold Lobel yaradıcılığı əsasında)"*** adlanan ikinci yarımfəsli qrafik novellalar, şəkilli kitablar, komikslər və onların əsas qəhrəmanları olan superqəhrəmanların təhlilinə yönəlmiş, eyni zamanda Amerikada uşaq ədəbiyyatında şəkilli əsərləri ilə tanınmış yazıçı Arnold Lobel yaradıcılığına nəzər yetirilmiş, ədibin bır sıra əsərlərinin ideya-bədii təhlili verilmişdir.

Amerika yazıçısı, uşaq ədəbiyyatında tanınmış qrafik romançı Perri Nodelmən (Perry Nodelman, 1942) müəllifi olduğu "Şəkillər haqqında sözlər: Uşaq şəkilli kitablarının təhkiyəçilik sənəti" ("Words about Pictures: The Narrative Art of Children's Picture Books") adlı əsərində qeyd edir ki: *"Uşaqlar üçün hər şəkilli kitab keyfiyyətli, maraqlı hesab edilə bilməz. Hər bir ədəbi üsul kimi, qrafik əsərlərin özünəməxsus çəkilmə şablonları vardır. Məsələn, İngiltərədə daha çox şəkillər soldan sağa doğru, əhatə etdiyi mövzunun altında verilir. Lakin dünyanın digər ölkələrində isə bu gedişat dəyişilə bilər, ön səhifədə tam şəkil, arxa səhifədə isə mövzu təqdim edilə bilər. Bəzən elə olur ki, şəkillərlə mövzu arasında daha böyük fərq olur, bu isə əksinə keyfiyyəti aşağı salır, uşaqların mətni və mövzunu anlamasına çətinlik yaradır"*[7].

İlk orijinal qrafik novella Uilyam Ervin Eysner (William Erwin Eisner, 1917-2005) tərəfindən yazılmış "Allahla müqavilə" ("A Contract with God") əsəridir. 1978-ci ildə nəşr edilmiş novella həm təhkiyəçi tərəfindən hekayə şəklində nəql olunmuş, həm də mövzuya aid şəkillərlə müşayiət edilmişdir. 2002-ci ildə əslən rus yazıçısı və jurnalisti S.Vayner qrafik novellanın 6 janrını təyin etmişdir: super qəhrəman hekayəsi (the Superhero Story), Manqa (Manga), sənədli ədəbiyyat (Nonfiction), uyğunlaşmalar və ya uğurlu kitablar (Adaptations or Spinoffs), insan marağı (Human Interest) və satira (Satire) üstünlüyü ilə seçilmişdir. 2007-ci ildə Maykl Pavuk (Michael Pawuk, 1971) qrafik novella üçün doqquz janr təklif etmişdir: Super qəhrəmanlar (Super-heroes), hərəkət və macəra (Action and Adventure), elmi fantastika (Science Fiction), fentezi (Fantasy),

---

[7] Nodelman, P. Words about Pictures: The Narrative Art of Children's Picture Books / P.Nodelman. – Children's Literature Association Quarterly. – The University of George Press, – 1988. – p.8

cinayət və sirlər (Crime and Mysteries), dəhşət (Horror), müasir həyat (Contemporary Life), yumor (Humor) və sənədli ədəbiyyat (Non-Fiction)[8].

Bir sıra yazıçılar belə bir mühakiməni əsas tuturlar ki, şəkilli kitablarda hekayə və şəkillər, verbal və vizual əlaqə bir-birini tamamlamalı və izləməlidir. Şəkillər və təsvirlər arasındakı bu kimi əlaqələri bir sıra alimlər araşdırmış, bu istiqamətdə nəzəri əsərlər yazılmışdır. Amerikalı alim və yazıçı Perri Nodelmənin bu sahədə xüsusi tədqiqatları nəzər-diqqəti cəlb edir. Onun fikrincə, təsvirlər və hekayə bir-birinin funksiyalarını əsərdə məhdudlaşdırır. Nəzəriyyəçi alim hekayə ilə şəkillər arasındakı əlaqəni kinayə adlandırır: sözlər və şəkillər sanki eyni əsərdə olanları kinayəli şəkildə özündə təcəssüm etdirir.

Bu baxımdan amerikalı yazıçı Arnold Lobel və onun əsərləri xüsusilə diqqəti çəkir. Arnold Lobel 1961-ci ildə ilk dəfə "Qırmızı işarə geri dönür" ("Red Tag Comes Back") adlı kitabını çap etdirmişdir. Kitab ədibin çəkib yaratdığı şəkillərlə bəzədilmişdi. Növbəti il isə o, "Mister Master üçün heyvanxana" ("A Zoo for Mister Muster") adlı yeni şəkilli kitabını nəşr etdirmişdir, hekayələrə çəkilən şəkillərin müəllifi də özü olmuşdur. Bu əsərlər arasında onu ədəbiyyat aləmində daha çox tanıtdıran "Tod və Froq" ("Toad and Frog") adlı kitabı olmuşdur. Tədqiqatçı Marqeri Fişerin (Margery Fisher, 1913-1992*)* yazdığı kimi, "Tod və Froq" əsəri Arnold Lobel yaradıcılığının zirvəsi hesab edilir[9]. Arnold Lobel uşaqlar üçün yazdığı "Qəribə bayquşlar və şişman donuzlar" ("Odd Owls and Stout Pigs") və "Siçan supu" ("Mouse Soup") kimi digər məşhur əsərlərinin də müəllifi olmuş, bu əsərlərində də qrafikaya üstünlük vermişdir.

"Tod və Froq" əsəri bir neçə hissədən ibarətdir: "Froqla Tod dostdurlar" (1970) ("Frog and Toad Are Friends"), "Froq və Tod birlikdə" (1972) ("Frog and Toad Together"), "Froqla Tod bütün ili birlikdə" (1976) ("Frog and Toad All Year") və "Froq və Todla

---

[8] Michael, P. Graphic Novels: A Genre Guide to Comic Books, Manga, and More. / P.Michael. – Thompson Public Library, – 2007. – 633 p.

[9] Fisher, M. Review of Frog and Toad Together, by Arnold Lobel / M.Fisher. – Growing Point, – 12 October – 1973. – 229 p.

birlikdə keçən günlər" (1979) ("Days with Frog and Toad"). Bu əsərlərin hər biri ayrı-ayrılıqda xüsusi mükafatlara layiq görülmüşdür. "Froqla Tod dostdurlar" əsəri Amerika Kitabxana Assosiasiyası tərəfindən Amerika ədəbiyyatında məşhur olan "Kaldekot" mükafatına layiq görülmüşdür. Əsər 2012-ci ildə Amerikada seçilmiş qrafik kitablar sırasında ilk 15-likdə yer qazanmışdır. "Froq və Tod birlikdə" əsəri "Nyuberi" mükafatına, "Froqla Tod bütün ili birlikdə" kitabı isə 1977-ci ildə "Kristafor" mükafatına layiq görülmüşdür.

Dissertasiyanın **"Amerika multikultural uşaq ədəbiyyatı"** adlanan **II fəsli**nin birinci yarımfəslində ***"Amerika multikultural uşaq nəsrində Uilyam Edvard Burthart Du Bois və Mildred Teylor yaradıcılığı"*** araşdırılmışdır. 1960-cı illərdə ölkəni bürüyən vətəndaş hərəkatlarına qədər, multikulturalizm termin kimi istifadə edilməmişdir. Amerika multikultural ədəbiyyatı dedikdə isə, ilk növbədə əsasən, Amerika-hindu, Afrika-Amerika, Latın və Amerika-Asiya yazıçılarının yaratdıqları əsərlər, yaxud ədəbiyyat nəzərdə tutulur.

Sandra Sizneros Meksika-Amerika yazıçısı olaraq tanınır. Heç şübhəsiz ki, onun ikili mədəniyyəti və dili əsərlərinə təsirsiz qalmamışdır. Ədibin yaradıcılığında mühüm yer tutan əsərləri arasında "Manqo küçəsindəki ev" ("The House on Mango street"), "Mənim keşməkeşli yollarım" ("My Wicked, Wicked Ways"), "Karamelo" ("Caramelo") uşaqlar və yeniyetmələr üçün nəzərdə tutulmuşdur. Hələ 23 yaşı olarkən (1977-ci ildə) onun "Manqo küçəsindəki ev" əsəri oxucular tərəfindən böyük maraqla qarşılanmışdır.

Amerika Hindu mədəniyyəti də multikultural ədəbiyyatın yaranmasında əvəzsiz rolu ilə seçilmişdir. Hindu ədəbiyyatının iki növü məlumdur: ənənəvi Hindu ədəbiyyatı və müasir Hindu ədəbiyyatı. Ənənəvi Hindu ədəbiyyatı dedikdə buraya müxtəlif janrda yazılmış söz inciləri: arzular, andlar və qarğışlar, lətifələr, adət-ənənələr, atalar sözü, zərb-məsəllər, inanclar, tapmacalar, əsatirlər, əfsanələr, nağıllar, balladalar, xalq mahnıları, uşaq folklorundan seçmə oyunlar, sınamalar, düzgülər, yanıltmaclar, bəzi festivallar və hətta təbabət elminə aid olan folklor nümunələri də şamil edilir. Samson Okkomun (Samson Occom, 1723-1792) 1772-ci ilə aid edilən nəşrləri ilə müasir Hindu ədəbiyyatının əsasının

qoyulduğu göstərilir. Daha sonralar XIX əsrin sonları XX əsrin başlanğıcında Uilyam Eyps (William Apes, 1798-1839), Simon Pokaqon (Simon Pokagon, 1830-1899), Sara Vinnemukka (Sarah Winnemucca, 1844-1891) və bir sıra yazıçıların əsərləri çap olunmağa başlamışdır. Asiya-Amerikan yazıçıları dedikdə buraya Çin, Yapon, Koreya, Filippin, Vyetnam, Malayziya və s. kimi Asiya əsilli yazıçılar aid edilir.

Amerika multikultural ədəbi dünyasında Afrika – Amerika mədəniyyətinin və ədəbiyyatının məxsusi yeri vardır. Bu baxımdan 1970-1990-cı illərdə U.E.Du Bois yaradıcılığı müəyyən məziyyətləri ilə seçilir. Afrika-Amerika mədəniyyəti tarixində hətta onu "Zənci Kral" adlandırmışlar. Onun zəngin yaradıcılığının başlanğıcı sayılan "Filadelfiya zəncisi, sosial elm, 1899" ("The Philadelphia Negro: A Social Study, 1899") əsəri mədəniyyət və sosiologiya arealında uğurlu debütü sayılmışdır. Ədibin 1903-cü ildə yazdığı "Zənci folklorunun əsasları" ("The Souls of Black Folk") adlı əsəri Afrika-Amerika ədəbiyyatına ilk dəfə məşhur ikili düşüncə ideyasını gətirmişdir. Du Boisin əsərlərində qoyduğu əsas ideyalardan biri məhz Amerikada olan zənci uşaqlarının gələcəyi ilə sıx bağlıdır.

Nyuberi mükafatının sahibi, Mildred Teylor (Mildred Taylor, 1943) hekayələrinin mövzusu tarixi, real hadisələrdən götürülmüş və bu əsərlərdə əsasən vətən sevgisi, tarixi köklərə və milli mədəniyyətə bağlılıq, irqi ayrı-seçkilik kimi müasir oxucunu narahat edən problemlərə toxunulmuşdur. Ədibin qələmə aldığı hekayələr həm komik, həm də faciəvi xarakter daşımışdır, lakin bunların hamısının cövhərində duran əsas problem isə həmin dövrdəki insanların cəmiyyətdə yaşadığı problemlərdir. O, qeyd edirdi ki: "*Tarixi həqiqətlərin əksəriyyəti bu hekayələrdə cəmləşmişdir və mən bu hekayələrə qulaq asmaqdan yorulmurdum. Burada köləlik və köləlikdən sonrakı günlər, eləcə də ailə və dostlar haqqında maraqlı hekayələr söylənilirdi"*[10]. Diqqətəlayiq hadisədir ki, 1970-ci illərə aid ədəbiyyatla bağlı olan araşdırmasında Violet C. Harris (Violet J. Harris, 1938-2013) Mildred Teyloru "uşaq kitablarını yazmaq və təsvir etmək üçün açıq məqsədləri olan, Du Bois ideyalarına yaxın"

[10] Fogelman, P.J. Mildred D. Taylor // The Horn Book Magazine, – March 1989. – p.179-180.

bir ədib kimi göstərmişdir. Violet C. Harris Mildred Teylorun yaradıcılığında əsas ideologiyanın, irq və irqçilyin aktuallığı məsələsinin əks edilməsini xüsusi vurğulamışdır. Lakin o, eyni zamanda Mildred Teylor yaradıcılığında diqqəti çəkən daha bir problemi göstərmişdir. Bu gender və sosial sinif məsələsidir ki, tənqidçi mühakiməsində bunun ədibin göstərmək istədiyi əsas problemlərdən biri olduğunu söyləmişdir[11].

Bütövlükdə isə Mildred Teylor yaradıcılığı əsasən üç dövrə bölünür: erkən, orta və son dövr. Ədibin yaradıcılığının erkən dövrünə aid edilən əsərləri 1970-ci illərin ortasından başlayaraq 80-ci illərin əvvəllərini əhatə edir. "Ağacların nəğməsi" ("Song of the Trees"), "Göy gurultusu, mənim səsimi eşit" ("Roll of Thunder, Hear My Cry") və "Qoy birlik qırılmasın" ("Let the Circle Be Unbroken") kimi əsərləri onun yaradıcılığının erkən dövrünə aid edilir. Ədibin yaradıcılığının ikinci dövrünə isə 1987-1990-cı illərdə yazdığı aşağıdakı əsərləri daxildir: "Qızıl Kadillak" ("The Gold Cadillac"), "Dostluq" ("The Friendship"), "Missisipi körpüsü" ("Mississippi Bridge") və yeniyetmələr üçün yazdığı ilk yaradıcılıq nümunəsi sayılan "Memfisə gedən yol" ("The Road to Memphis"). Mildred Teylorun son dövr yaradıcılığı daha çox 1995-2001-ci illəri əhatə edir. Ədibin ilk məşhur əsəri və ilk dəfə mükafat qazanan kitabı "Ağacların nəğməsi" ("Song of the Trees") olmuşdur. Bu əsərinə görə o, 1974-cü ildə Uşaqlar Üçün İrqlərarası Kitablar Şurasının mükafatına layiq görülmüşdür. Əsər Afrika-Amerika uşaqlarına həsr olunmuş kitablar arasında birinci yeri tutmuşdur.

Ədib orta dövr yaradıcılığında dörd məşhur əsərini yazmışdır. 1988-ci ildə "Qızıl Kadillak" əsərinə görə "Kristafor" mükafatına layiq görülmüşdür. "Dostluq" adında digər əsəri isə eyni ildə "Krotta Skot King" mükafatına layiq bilinmişdir. Onun "Missisipi körpüsü" adlı daha bir əsəri yeniyetmələr və gənclər arasında 1991-ci ildə "Krotta Skot King" mükafatına layiq görülmüşdür. Yazıçının son dövr yaradıcılığına aid edilən kitabları çoxsaylı mükafat qazanmışdır. "Quyu" hekayəsi 1996-cı ildə, uşaq ədəbiyyatı sahəsində bir neçə

[11] Harris, V.J. Children's Literature Depicting Blacks, in Using Multiethnic Literature in the K– 8 Classroom // – Christopher – Gordon Publishers. Norwood Mass. – 1997. – p.21-58.

mükafata layiq bilinmişdir. Ədib adını qeyd etdiyimiz əsərinə görə "Ceyn Adams", Milli Xristian məktəbləri Assosiasiyasının "Ləmplayter" mükafatlarını qazanmış və bu əsərlər Amerikanın ən yaxşı satılan uşaq kitabları sırasına daxil edilmişdir.

Araşdırmanın II fəslinin ***"Amerika uşaq şeiri"*** adlanan ikinci yarımfəslində aparılmış tədqiqatın nəticələrinə görə qeyd edilir ki, 1727-ci ildə "Əlifba" ("Alphabet") adlı kitabda anonim amerikan şeirləri, yaxud nümunələri də yer almışdır və Amerika uşaq şeirinin təxminən 300 ilə yaxın tarixi vardır. XIX əsr Amerika poeziyasının nəhənglərindən biri olan Henri Uordsvort Lonqfellodur. Amerika uşaq ədəbiyyatında H.U.Lonqfellonun müəyyən xidmətlərini də unutmaq olmaz. "Ox və mahnı" ("The Arrow and the Song), "Uşaqların zamanı" ("The Children's Hour"), "Pol Revirin at gəzintisi" ("Paul Revere's Ride"), "Yağışlı gün" ("The Rainy Day"), və s. adlı şeirləri uşaqlar üçün yazılmış məşhur əsərlər sırasına daxil edilmişdir. Onun uşaqlar üçün yazdığı məşhur şeirlərdən biri "Uşaqların zamanı" ("The Children's Hour") adlanır.

XX yüzilliyin 70-90-cı illərində Amerika ədəbiyyatında uşaq şeirləri özünün yüksək zirvəsini – İntibahını yaratmışdır. Bu şeirlərin müəllifləri sırasında məşhur yazarlardan biri Meri Ann Hoberməndir (Mary Ann Hoberman, 1930). O, 1957-ci ildə uşaqlar üçün ilk "Bütün ayaqqabılarım taykeş deyil" ("All my Shoes Come in Two's") adlı şeirlər toplusunu nəşr etdirmişdir. Əsərdə uşaqların ayaqlarına geyindikləri cürbəcür ayaqqabılar lakonik şəkildə təsvir edilir. 1959-cu ildə nəşr olunan "Salam və sağ ol" ("Hello and Good-bye") kitabına Normən Hobermənin çəkdiyi şəkillər isə azyaşlı uşaqların maraq dünyasına yeni rəng qatmışdır. O, XX əsrin 70-90-cı illərində daha məhsuldar yaradıcılıq yolu keçmişdir. 1973-cu ildə "Balaca heyvanların balaca kitabı" ("A Little Book of Little Beasts"), eyni ildə "Xır-xır səsli Qaqark adlı dəniz quşu" ("The Raucous Auk"), "Tanışlıq kitabı" ("The Looking Book") adlı məcmuələri, daha sonra isə 1974-cü ildə "Sənin və mənim üçün çərəz" ("Nuts to You and Nuts to Me"), 1976-cı ildə "Mən köhnə paltarları xoşlayıram" ("I Like Old Clothes"), yenə 1976-cı ildə "Cücülər" ("Bugs"), 1978-ci ildə "Ev mənim və sənin üçün evdir" ("A House is a House for Me and You"), 1981-ci ildə "Sarı yağ,

bənövşəyi jele, qırmızı cem, qara çörək" ("Yellow Butter, Purple Jelly, Red Jam, Black Bread"), 1982-ci ildə "Rahat kitab" ("The Cozy Book"), 1988-ci ildə "Cənab və Xanım Madl" ("Mr.and Mrs. Muddle") adlı kitabları uşaqların sevimlisinə çevrilmişdir. Qeyd edək ki, 90-cı illərdən indiyə qədər Meri Hobermən uşaq ədəbiyyatında və uşaq poeziyasında seçilən, sevilən şeirlərin müəllifi kimi yaxşı tanınır.

Onun 1978-ci ildə nəşr etdirdiyi "Ev mənim və sənin üçün evdir" ("A House is a House for Me and You") adlı kitabı uşaq ədəbiyyatında ən çox tanınan və oxunan nəşrlərdən biri olmuşdur. Meri Hobermən yalnız yazdığı əsərinə görə deyil, eyni zamanda kitabında poetik nümunələrə uyğun verilmiş illüstrasiyalara görə də seçilir. Meri Listad Ann kitab haqqında yazırdı: *"Meri Hobermən şeirlərində öz xəyali təsvirini elə ustalıqla qələmə alır ki, oxucu əsərlə tanış olduqda heç bir xəyali təsvirə ehtiyac duymur, onlar görmək istədiyi hər şeyi öz gözləri ilə görüb, oxuyub və elə olduğu kimi də xəyalında canlandırır"*[12].

Tədqiqatçı Şeron Elsvit (Sharon Elswit, 1947) yazırdı: *"Meri Hobermən zəngin kitab yaratmışdır, uşaqlar bu kitabla öyrənməli olduğu bir çox məlumatı alır, şeirlərin illüstrasiyalarla verilməsi isə balaca oxucunu kitabı daha böyük maraq və şövqlə oxumağa ruhlandırır"*[13]. Digər araşdırıcı Harold Rays isə ədibin əsərini qeyri-adi şəkilli kitab adlandırmışdır. Onun fikrincə kitabın mükafat qazanmasına da səbəb onun illüstrasiyalarla verilməsidir[14].

Meri Ann Hobermənin 1998-ci ildə Fauzerin şəkilləri ilə əhatələnmiş "Pijamasız Lama" adlı kitabından "Geri qalmış şəhərin adamları" ("The Folk who Lived in Backward Town") adlı şeirinin tərcüməsi 2016-cı ildə "Ədəbiyyat qəzeti"ndə çap olunmuşdur[15].

---

[12] Lystad, M.A. From Dr.Mather to Dr.Seuss: Two hundred Years of American Books for Children. / M.Lystad. – Boston: G.K.Hall-Schenkman. – 1980. – p.48

[13] Sharon, E. Review of a House is a House for me // – School Library Journal, – October, – 1978. – p.133-136.

[14] Harold, C.K. Rice. Good Looking // – New York Times Book Review, – December 10, – 1978. – p.72-73.

[15] Britaniya və Amerika uşaq şeirindən seçmələr. Tərcümə edəni: Şahin Xəlilli. // Ədəbiyyat qəzeti. – 2016. – 23 aprel. – s.21

Orijinal şeirləri ilə tanınan Arnold Spilka (Arnold Spilka, 1917-2002) yaradıcılığının da Amerika uşaq ədəbiyyatının 70-90-cı illər zaman kəsiyində xüsusi yeri vardır. O, həm müəllifi, həm də rəssamı olduğu digər şeirlər toplusunu isə "Şir, sənsiz də öhdəsindən gələrəm" ("A Lion I Can Do Without", 1964), "Qurbağa boş yerə getdi" ("The Frog Went Blah", 1972) adı altında nəşr etdirmişdir.

"Mənə çox danışdığımı söyləmə" ("Don't Tell Me That I Talk Too Much") və "Güllər ağılsız bir dəstədir" ("Flowers are a Silly Bunch") adlı poemalarında o, ilk əvvəl ağacları, gülləri, ümumilikdə təbiəti, onun gözəlliyini tərənnüm etmək istəsə də, daha sonra onların mövzu dairəsini genişləndirərək poemaların sonunda şəhərin təsvirinə diqqət yetirmiş, mövzunu birbaşa şəhərlə əlaqələndirmişdir. Arnold Spilkanın şeirlərindən bəziləri Azərbaycan dilinə tərcümə olunmuşdur. Bu tərcümələr arasında Şahin Xəlillinin də poetik tərcümələrinə rast gəlmək mümkündür. Əvvəla, qeyd edək ki, Arnold Spilkanın uşaqlar üçün nəşr olunan kitabları sırasında daha çox diqqəti çəkən "Uşaqlar üçün təsadüfi şeir kitabı" ("Random House Book of Poetry for Children") adlı əsəridir.

Arnold Spilkanın yaratdığı qafiyələr ritmik və poetik tutumuna görə cəzbedicidir. O, şeirlərində sözlərin qafiyə seçiminə, onun sadəliyinə və təbiiliyinə şairlik istedadı və zəhməti ilə nail olmuşdur. İkinci bir tərəfdən isə, Arnold Spilkanın şeirlər kitabına çəkdiyi şəkillər şeirlərinin aydın dərk edilməsinə pozitiv təsirini göstərmişdir.

Bu gün uşaq şeirlərinə yaradıcılığında geniş yer ayırmış, bu sahədə bir sıra mükafatlara layiq görülmüş şair Merilin Nelsonun (Marilyn Nelson, 1946) adını unutmaq olmaz. O, Amerika uşaq ədəbiyyatının ən məşhur və məhsuldar şairlərindən biri, Milli Kitab Mükafatının üçqat finalçısı, Nyuberi, Prints və Koretta Skott Kinq kimi məşhur mükafatların qalibidir.

Merilin Nelson iyirmidən çox şeir kitabının, bir sıra tərcümələrin müəllifidir. O, XX əsrin 70-90-cı illərində yazdığı şeirləri ilə müasir uşaq poeziyası sahəsində digər şairlərdən fərqlənmişdi. Ailə və məişət mövzuları şairin yazdığı uşaq şeirlərində xüsusi diqqəti çəkir. Qaradərili şair şeirlərinin mövzusunda irqi ayrı-seçkiliyin əks etdirdiyi xüsusiyyətlərdən kənar qaça bilməzdi. Onun ilk şeir kitabı 1978-ci ildə yazdığı "Bədən üçün" ("For the Body") adlanırdı. "Pişik tavada gəzdi

və uşaqlar üçün digər şeirlər" ("The Cat Walked Through the Casserole and Other Poems for Children") adlı ikinci şeir kitabı 1984-cü ildə nəşr edilir. Daha çox ailə-məişət mövzusunda yazdığı bu şeirlərində o, uşaqlara maraqlı olacaq mövzulara müraciət etmişdir. Kitabda olan "Cadugər qız Meri Ann" ("Mary Ann The Witch Girl"), "Göy qurşağının kraliçası" ("Queen of the Rainbow") və digər şeirləri uşaqların sevə biləcəyi mövzulara, uşaq oyunlarına, ev heyvanlarına, bunlardan yarana biləcək və hətta qonşularla mübahisəyə səbəb ola biləcək problemlərə həsr edilmişdir. Merilin Nelsonun yaradıcılığı 1990-cı ildən sonra da davam etmişdir.

Dissertasiyanın **III fəsli "Amerika uşaq mədəniyyəti"** adlanır. Bu fəslin birinci yarımfəslində ***"XX əsrin ikinci yarısında Amerika uşaq dramaturgiyası"*** məsələləri, xüsusilə 1970-1990-cı illərdə onların struktur prinsipləri araşdırılır.

Amerikada uşaq dramaturgiyasının tarixinin XIX əsrdən başlandığı qeyd edilir. Təxminən 1880-ci ildən 1920-ci ilə qədər olan qırx illik dövrdə peşəkar teatr-truppaları ilk dəfə uşaq oyunlarını tamaşaya qoymuş və yaranan təcrübə məşhur teatr forması kimi uşaq teatrının yaradılmasına təkan vermişdir. Arizona Dövlət Universitetinin tədqiqatçısı Rocer L.Bedard yazırdı ki: *"1928-ci ilə qədər süstlük dövrünü yaşayan Amerika uşaq dramaturgiyası, Şarlotta B.Çorpenninqin (Charlotte B. Chorpenning, 1873-1955) uşaq pyesləri ilə sona çatmışdır. 40-dan çox nağılı repertuarına daxil edən Şarlotta B.Çorpenninq uşaqlar üçün dram əsərlərinə maraq və həssaslıqla yanaşmışdır. Onun rəhbərliyi ilə Amerika uşaq dramaturgiyası 1945-ci ilə qədər intibah dövrünü yaşamışdır. Bu sahədə bir sıra yazarlar da öz qələmini sınamışlar"*[16].

XX əsrin 70-ci illərində Amerika uşaq dramaturgiyasında misilsiz xidmətləri olan Syuzan Zederin (Suzan Zeder, 1948) 1978-ci ildə Amerika Teatr Assosiasiyası tərəfindən Şarlotta B.Çorpenninq mükafatına, 1980-ci ildə Uşaq Teatr Fondunun ən yaxşı dramaturqu qrantına, 1988-ci ildə isə "Nuh daşqını adlanan pyes" ("The Play Called Noah's Flood"), 1986-cı ildə "Qapılar" ("Doors"), "Ana

[16] Roger, L. Bedard. A Brief Survey of the Development of Dramatic Literature for Children // – Johns Hopkins University Press, Children's Literature Association Quarterly, – Fall – 1983. Vol. 8, No 3, – p.35-36.

Hicis" ("Mother Hicks") adlı əsərlərinə görə Cənub-Qərbi Teatr Assosiasiyasının ən yaxşı dramaturqu adına layiq görülmüşdür.

1974-cü il də yazdığı "Çat üzərində addım" ("Step on a Crack") pyesi onun yaradıcılığında əlamətdar yeri ilə seçilən ilk əsəri sayılır. Yaradıcılığa bu əsəri ilə başlayan Syuzan Zeder daha sonralar dram janrında çoxsaylı pyeslərin müəllifi kimi tanınmışdır. O, 1978-ci ildə "Vayli və Tüklü adam" ("Wiley and the Hairy Man"), 1979-cu ildə "Sehrbazlıqdan yanlış istifadə: Betlheymə fərqli baxış" ("The Mis-Uses of Enchantment: Another Look at Bettleheim"), 1981-ci ildə "Oz ölkəsinin Ozması: zamanın nağılı" ("Ozma of Oz: A Tale of Time"), 1984-cü ildə "Bunların bəzisini əvvəllər eşitmişəm" ("I've Heard Some of them Before"), 1985-ci ildə "Nuh daşqını adlanan pyes" ("The Play Called Noah's Flood") və s. pyeslərini nəşr etdirmişdir. XX əsrin sonları və XXI əsrin əvvəllərində Syuzan Zederin "Sarı qayığın səyahəti" ("The Journey of the Yellow Boat"), "Şerlok Holmsun həyatı və ölümü" ("The Death and Life of Sherlock Holmes"), "Günəşin doğmasının təamı" ("The Taste of Sunrise") kimi əsərləri müasir dövrün sevilən və tamaşaya qoyulan səhnə əsərlərinə çevrilmişdir.

*"Syuzan Zeder yaradıcılığını digər uşaq dramaturqlarından fərqləndirən əsas cəhət onun Amerika uşaq ədəbiyyatında dram janrında fərqli mövzulara daha çox müraciət etməsidir. O, özündən əvvəlki dramaturqlar kimi mövzu baxımından yalnız xalq nağıllarından deyil, eləcə də dövrün rəngarəng, fərqli mövzularından bəhrələnmişdir. Belə mövzulardan biri də XX əsrin 60-cı illərindən sonra cəmiyyətdə məşhurluq qazanmış feminizm məsələsi olmuşdur"*[17]. Amerika uşaq dramaturgiyası sahəsində bu mövzunu uşaq ədəbiyyatına gətirməklə Syuzan Zeder dövrünün ən böyük yenilikçilərindən biri olmuşdur. Gender mövzusu cəmiyyətdə var olduğu qədər ədəbiyyatda öz balansını tapmamışdır. Perri Nodelmən və Uşaq ədəbiyyatı cəmiyyətinin üzvü olan yazıçılar uşaq ədəbiyyatında feminizm ideologiyasının olmasını onun inkişaf tarixi ilə əlaqələndirirlər. Onlar belə hesab edirlər ki, XX əsrin 70-ci

[17] Abdullayeva, T.M. 1970-1990-cı illər Amerika uşaq dramaturgiyası // – Bakı: Bakı Dövlət Universiteti, Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2018. № 3, – s.329-331.

illərindən sonra qadınların cəmiyyətdəki rolu sürətlə artmışdır. Qadınların uşaq ədəbiyyatına estetik və strateji cəhətdən fərqli yanaşmaları feminist yanaşmanın uşaq ədəbiyyatına təsirinin bariz ifadəsidir[18].

Syuzan Zeder qadınların əsərlərdə ifritə obrazında verilməsinin də bir yanlışlıq olduğunu dilə gətirmək istəmiş, Qərbi Avropada XV və XIX əsrdə bu mövzuda yazılmış əsərləri bir növ qınağa çəkmişdir. Dramaturqun 1978-ci ildə yazdığı "Vayli və Tüklü adam" hekayəsi onun sevilə-sevilə oxunan əsərlərindən biri olmuşdur. Əslində Syuzan Zeder bu əsəri ilə dövrünün müasir nağılını yaratmışdır. Onun bu əsəri uşaq auditoriyasını cəsurluğa, qorxmazlığa səsləyir, onlarda özlərinə inam hissi aşılayaraq hər cür çətinliyə sinə gərib qalib gəlmək məramını göstərir[19].

XX əsrin 70-90-cı illərində uşaq dramı janrında yazan Katrin Şultz Millerin (Kathryn Schultz Miller) "Min durna" ("A Thousand Cranes") adlı pyesi Amerikada bir sıra uşaq teatrlarında tamaşaya qoyulmuşdur. 1976-ci ildən başlayaraq uşaqlar üçün 70-dən çox əsər yazılmış və həmin əsərlərin bir çoxu mükafatlara layiq görülmüşdür. Katrin Miller həyat yoldaşı Bərri Millerlə (Barry Miller) Amerikanın Ohayo ştatında daha çox uşaqlar və yeniyetmələr üçün nəzərdə tutulmuş məşhur "Art Reach Touring Theatre" adlı şirkətin əsasını qoymuşdur. Dramaturqun əsərləri daha sonralar dünyanın bir sıra teatr səhnələrində nümayiş etdirilmiş və hal-hazırda internet saytlarında tamaşaları izləmək mümkündür. İndi Katrin Millerin teatrında nümayiş etdirilən teatr izləyicilərinin sayı dünyanın 124 ölkəsində 15000 nəfərdən çoxdur.

Katrin Millerin "Ada oğlanı" ("Island Son") "Torpaq ürəkli Amelia" ("Amelia Earhart"), "Min durna" ("A Thousand Cranes"), "Pərilərlə dolu evlər" ("Haunted Houses") və digər əsərləri dəfələrlə səhnələşdirilmiş və mükafatlara layiq görülmüşdür. O, 1985-ci ildə Amerikada "Post Corbett" mükafatına layiq görülmüş, ABŞ-ın ən yaxşı dramaturqu hesab edilmişdir. 1990-cı ildə "Dramaturq"

---

18 Nodelman, Perry. Children's Literature as Women's Writing // – Children's Literature Association Quarterly, –1998. Vol.13, No1, – p.31-34.
19 Allison, G.Belnap. Children's Book and Media Review: [in 22 vol.]/ G.Belnap Allison. – St. Martin's Press, – Vol.1. – 2001. – 24 p.

nəşriyyatı tərəfindən çap edilən “Min durna” pyesi onun daha geniş auditoriyada tanınmasında yeni mərhələ sayılmışdır. Katrin Miller hazırda yaradıcılığını davam etdirir, uşaqlar üçün maraqlı mövzularda tamaşalar hazırlayır. Onun son illərdə yazdığı əsərləri Milad bayramına həsr edilmiş “Fındıqqıran şahzadə” (“Nutcracker Prince”) və “Balaca Frankenşteyin” (“Kid Frankenstein”), “Mulan əfsanəsi” (“Legend of Mulan”), “Cəngəllik kitabı” (“Jungle Book”) adlanır. Bu əsərlərin tamaşaları gənc tamaşaçılar tərəfindən maraqla izlənillir.

Syuzan Zederlə Katrin Miller yaradıcılığı bir-birindən müəyyən cəhətləri ilə fərqlənsə də, hər iki dramaturqun əsərlərində uşaqlara aşılamaq istədiyi ideyalarda oxşarlıqları görmək mümkündür. Məsələn, Katrin Millerin qəhrəmanı Sadikoda Syuzan Zeder əsərlərinin qəhrəmanlarına məxsus iradə, insan ruhunun ölümsüzlüyü ilə yanaşı, mübarizədən sonra yenidən ayağa qalxmaq əzmi vardır. Sadiko onlara nail olmaq üçün min bir əzab-əziyyətdən keçib istədiyinə nail olmağa çalışır. Hər iki dramaturqu birləşdirən digər bir xüsusiyyət isə teatr sənədidir. Onlar kitab halında nəşr etdiyi əsərlərini səhnədə tamaşaçı ilə paylaşmağı üstün tuturlar. Lakin Katrin Miller yaradıcılığa kommersiya məqsədi ilə başlasa da, indi bu sahədə öz sözünü söyləmiş dramaturqdur. Syuzan Zeder isə yaradıcılığına başlayarkən bir gün teatr sahəsində belə bir uğura imza atacağını düşünməmişdi.

***“Uşaq mədəniyyəti, filmlər. Uolt Disney filmləri”*** adlanan sonuncu yarımfəsildə qeyd edilir ki, XX əsrdə Amerika uşaq mədəniyyəti özünəməxsus inkişaf yolu keçmişdir. XX əsrin 70-ci illərində insanlar arasında daha çox yayılan sərbəst düşüncə Marlo Tomasın (Margaret Julia Marlo Thomas, 1937) “Sərbəst, azad olmalı” sərlövhəli azadlığa həsr olunmuş şeirdə ritmik poetik əksini tapmışdır. Həmin illərdə “Sərbəst, azad olmalı” adlı bır sıra hekayə və skeçlərini yazmışdır. “Grammy” mükafatına təqdim olunan albom, buraxıldığı ildən 1974-cü ilin martına qədər 150.000 nüsxə satılmışdır. Kitab həm “Emmy”, həm də yayımda xüsusi reytinq əldə etdiyi üçün “Peabody” mükafatlarına təqdim edilmişdir.

Uşaq ədəbiyyatı və Uolt Disney (Walt Disney, 1901-1966) filmləri arasında əlaqələrdən danışarkən qeyd edək ki, XX əsr Amerika mədəniyyəti tarixində silinməz izlər qoyan film studiyası

Uolt Disney, yalnız öz vətənində deyil, dünyanın əksər ölkələrində sevilərək izlənilən filmlərin istehsalı ilə məşğuldur.

Uolt Disney özünün çox da böyük olmayan “Laf-O-Qram” adlı özəl şirkətini yaratmışdır. O, “Qırmızı papaq”, “Çəkməli pişik” və rəsmlərdən ibarət digər nağıl filmlərini çəkmişdir. İki hissədən ibarət olan “Alisa möcüzələr ölkəsində” cizgi filminin animasiyasını yaratmışdır. Eləcə də şirkət tərəfindən “Osvald – xoşbəxt dovşan” adlı yeni uşaq filmini balaca tamaşaçıların ixtiyarına vermişdir. Sənət aləmində böyük uğur qazanan yeni personaj Mikki Maus ilk dəfə Uolt Disneyin “Dəli təyyarə” adlı filmində görünmüşdür. Mikki Maus personajının yaradılmasına görə 1932-ci ildə o, “Oskar” mükafatına layiq görülmüşdür.

1939-cu ildə “Look” jurnalında Leon Şlenzer Mikki Maus haqqında aşağıdakı sözləri söyləmişdi: *“Bu gün cizgi filmi uşaqlar və yaşlı tamaşaçılar üçün gözəl əyləncə olsa da, bu, ilk növbədə, uşaqlar üçün nəzərdə tutulmuş ən böyük istirahətdir. Ona görə də biz həmişə məhsulları onların düşüncəsinə uyğunlaşdıraraq istehsal etməliyik”*[20]. Uolt Disneyin ilk tammetrajlı cizgi filmi isə alman xalqına məxsus “Ağbəniz və yeddi cırtdan” (“Snow White and the Seven Dwarfs”) adlı sehirli nağılı olmuşdur. Bu, 1812-ci ildə ilk dəfə milliyyətcə alman Qrimm qardaşları tərəfindən toplanaraq çap edilən xalq nağılından götürülmüşdür. Şirkət yalnız müasir Amerika uşaq ədəbiyyatına deyil, eləcə də dünyanın bir çox şifahi və yazılı uşaq ədəbiyyatına da müraciət etmişdir. Məsələn, “Yatmış gözəl” və “Sinderella” uşaqlar üçün çəkilmiş ən yaxşı filmlər sırasına daxil edilmişdir. Bunlar Çarlz Perrault (Charles Perrault, 1628-1703), Qrimm qardaşları və Qiambattista Bazilenin (Giambattista Basile, 1566-1632) qələmə aldığı nağıl versiyaları ilə məşhurlaşan Qərbi Avropa nağıllarıdır.

Disney film şirkəti 60-cı illərdən sonra da yeni filmlərin istehsalını davam etdirmiş və həmin filmlər irili-xırdalı bütün tamaşaçıların böyük marağına səbəb olmuşdur. Uolt Disney filmlərində siyasi məsələlərdən kənarda qalmamışdır. “Cəngəllik kitabı” filmində əslində Britaniyanın Hindistanda yeritdiyi

[20] Sampson, Henry. That’s Enough, Folks: Cartoon Images in Animated Cartoons, 1900-1960 / H.Sampson. – London: Scarecrow Press, – 1998. – p.173

müstəmləkə siyasəti əksini tapmışdır. Hətta şirkət burada Mauqlini britaniyalı, onu böyüdən heyvanları isə hindli qiyafəsində nümayiş etdirmək niyyətində olmuşdur. Mauqlinin filmin sonunda onu böyüdüb, qoruyub saxlamış heyvanları tərk etməsi, Britaniyanın müstəmləkəçilikdən sonrakı siyasətinə uyğunlaşdırılmışdır. "Robin Hud" adlı digər bir film isə ingilis balladaları əsasında çəkilmişdir. Bu animasiya filmi elə o dövr Britaniya ərazisində baş verən məmurların özbaşınalığını təsvir etmək üçün ən yaxşı vasitələrdən biri olmuşdur.

Dissertasiyada araşdırılan mövzu ilə bağlı **Nəticə**də aşağıdakı qənaətlər müəyyənləşdirilmişdir:

– Bir sıra sahələrdə olduğu kimi, Amerika uşaq ədəbiyyatının yaranmasında Qərbi Avropa ölkələrinin, xüsusilə Britaniya ədəbiyyatının təsiri təkzibedilməzdir;

– Çap işindən əvvəl yazılmış erkən uşaq ədəbiyyatının inkişafını izləmək çətindir. Mətbəə inkişaf etdikdən sonra belə, bir çox klassik uşaq nağılları ilk növbədə böyüklər üçün yaradılmış və daha sonra uşaq və yeniyetmələr auditoriyası üçün uyğunlaşdırılmışdır. XVII əsrdən etibarən, əxlaqi və ya dini xarakterli bir çox ədəbiyyat nümunələri uşaqların ixtiyarına verilmişdir. XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq "Uşaq ədəbiyyatının Qızıl əsri" ifadəsi ədəbi dövriyyəyə daxil edilmişdir. Təbii ki, bu dövrdə bir sıra klassik uşaq əsərləri yaradılmışdır;

– Araşdırdığımız mərhələnin ediblərinin əsərlərinin əsas məqsədi insanın insan üzərində ağalığına, irqi ayrı-seçkiliyə qarşı üsyankar səsini ucaltmaq, valideynlərə övladlarını tənbeh etmək və ya cəza vermək məqsədilə mənəvi və fiziki cəhətdən onları əzməməyi təlqin etmək, insanların rənglərinin, inanclarının və maddi durumlarının fərqli olmasından asılı olmayaraq onlara ən səmimi hiss və duyğuları aşılamaqdır;

– XX əsrin 70-90-cı illərində Amerika uşaq ədəbiyyatında gender və millətçilik məsələsinin geniş vüsət almasının səbəbi, hər şeydən əvvəl, cəmiyyətdə baş verən ictimai-siyasi dəyişiklərlə bağlı olmuşdur. Bu illərdə uşaq ədəbiyyatının dili sadələşdirilmiş, oğlan və qızlar üçün yazılmış hekayələr, qaradərili insanlara həsr edilmiş, yaxud yalnız ağdərili uşaqların oxuya biləcəyi ədəbiyyat anlayışının dəyişdirilməsi daha faydalı bir yanaşmanın uğurunu təmin etmişdir;

– XX əsrdə uşaq ədəbiyyatında yaranan komikslər və şəkilli novellalar yeni tendensiyaları özündə ehtiva etmişdir;

– Komikslər və qrafik romanlar müasir ədəbiyyatın məşhur janrlarına çevrilmişdir. Adətən, komikslər daha qısa (təxminən 40 və ya daha az səhifəyədək olub) lakin davamlı şəkildə, həftədə və ya ayda bir, iki, yəni müəyyən müddətdən bir nəşr edilmişdir və mövzular müəllifin əsərində qoyduğu fikirlə bir-birini tamamlamışdır. Şəkilli kitablarda isə mövzu bir qayda olaraq bütöv halda, uzun roman kimi bir və ya bir neçə hissədən ibarət olur. Bəzən qrafik əsərlərdə komikslərdən mənbə kimi istifadə edilir. Məsələn, "Kapitan Amerika" ("Captain America"), "Cəhənnəm oğlanı" ("Hellboy"), "Amerikanın ədalət liqası" ("Justice League of America") adı ilə məşhur olan qrafik romanlar əvvəllər komikslər adı ilə nəşr edilirdi. Və yaxud əksinə, hər hansı qrafik romandan sonra onun mövzusunu uyğun komikslər əvəz edirdi. Məsələn, "Gözətçilər" ("Watchmen") və ya "Günah şəhəri" ("Sin City") əvvəlcə qrafik roman olaraq yazılmış, daha sonra isə onun əsasında komikslər yaranmışdır;

– Arnold Lobel kitabları komik sevgi və dostluq nağıllarından ibarətdir, əksəriyyəti heyvanları simvolik obrazlar kimi təqdim edir. Ədib özünü yazıçı və ya bir sənətçidən daha çox, əsərləri gündəmə gətirən şəxs adlandırmışdır. "Uşaqlar üçün kitab hazırlamaqdan daha məmnun və əyləncəli ola biləcək bir iş düşünmürəm" yazan Arnold Lobel təsvir etdiyi 100-ə yaxın kitabı ilə yeni dövr Amerika uşaq ədəbiyyatının iri sütunlarından birini yaratmışdır;

– Multikultural ölkə kimi tanınan ABŞ-da ölkənin ictimai-siyasi vəziyyəti onun ədəbiyyatından kənarda qalmamış, xüsusilə Afrika-Amerika uşaq ədəbiyyatının yaranmasında danılmaz xidmətləri ilə seçilən Du Bois Afrika-Amerika uşaq ədəbiyyatının yaranmasında mühüm xidmətləri ilə seçilmişdir;

– Amerika ədəbiyyatının bir sıra mükafatlarına layiq görülmüş Mildred Teylorun yaradıcılığı isə onun qadın və qaradərili olmasına baxmayaraq əsərlərində önə çəkdiyi irqçilik problemi yaranmaqda olan multikultural uşaq ədəbiyyatına müsbət təsir göstərmişdir. Bu sahədə yazan yazıçılar üçün mənəvi körpü rolunu oynamışdır. Mildred Teylor əsərlərində ilk dəfə qaradərili xanım qəhrəmanları

qorxmaz və mərd, vəzifələrinin öhdəsindən gələn obrazlar kimi təqdim etmişdir;

– XX əsrin 70-90-cı illərində, Amerika uşaq ədəbiyyatında şeirləri ilə məşhur olan Meri Ann Hobermən, Merilin Nelson və Arnold Spilka yaradıcılığı, onların mövcud poeziya ənənələri ilə bu janra gətirdiyi yenilikləri onu söyləməyə əsas verir ki, onlar təxəyyül və reallığın poetik vəhdətini şeirlə illüstrasiyaların yeni tipini yaratmışlar;

– Amerika uşaq ədəbiyyatında dram janrının təşəkkülündə və formalaşmasında tarixi dövr üçün səciyyəvi olan yeni formalı realizmin, müasirliyin və qeyri-real hadisələrin müştərəkliyinə əsaslanan yeni mövzular ötən əsrin 70-90-cı illərində uşaq pyeslərinin sərhədlərinin genişləndirilməsində mühüm rol oynamışdır;

– Azərbaycan ədəbi-ictimai mühiti ilə sıx əlaqə saxlayan amerikalı dramaturq Syuzan Zeder yaradıcılığında əsas yer tutan çoxsaylı əsərləri onun yeni ənənələri yaradan novator dramaturq olduğunu söyləməyə əsas verir;

– Syuzan Zederin əsərlərində qoyulan əsas problemlər, əsəb gərginliyi və münaqişələrə səbəb olan fərziyyələri alt-üst etmək və şəxsi əlaqələri təmin etmək, bir-birinə güvəncdən uzaqlaşan insanların rahatlığının və sadə, dürüst ünsiyyətin orijinal tipini yaratmışdır;

– XX əsrin 70-ci illərində məşhur yazıçı və aktrisa Marlo Tomasın azadlıq ideologiyası Amerika uşaq ədəbiyyatında yeni mərhələnin təşəkkülünə və novator ideyaların təcəssümünə zəmin yaratmış, yeni ideya-estetik platformanın formalaşmasında mühüm ədəbi hadisəyə çevrilmişdir;

– Uolt Disney filmlərinin uşaq ədəbiyyatı ilə əlaqəsi, XX əsrdə film studiyası kimi məşhurlaşması bu sənətçinin yalnız vətənində deyil, eləcə də vətənindən uzaqlarda filmlərinin beynəlmiləl şöhrəti haqqında müəyyən təsəvvür yaradır. Disney filmləri ilə uşaq ədəbiyyatı arasında sıx əlaqələrin yaradılması ilə Amerika uşaq ədəbiyyatının inkişafında mühüm mərhələnin yarandığını söyləmək olar.

**Dissertasiya işinin əsas müddəaları aşağıdakı məqalə və tezislərdə əksini tapmışdır:**

1. Qara Britaniya ədəbiyyatının təşəkkülü // Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. – Bakı: Qafqaz Universiteti, – 25-27 Aprel, – 2013, – s.572-573.
2. Judy Blume's and her Book Iggie's House Position in Children Literature of America// Збірник наукових працъ, за матеріалами IX Міжнародной науково-практичной конференцй від, України, – 29-30 грудня, – 2014, – p.123-124.
3. Qara Britaniya ədəbiyyatının əsas mövzuları // Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı. – Bakı: Qafqaz Universiteti, – 18-19 Aprel, – 2014, – s.394-395.
4. Arnold Lobelin "Tod və Froq" əsərində uşaq dünyasının dərki // Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevin anadan olmasının 92 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı. – Bakı: Qafqaz Universiteti, – 17-18 Aprel, – 2015, – s. 1064-1065.
5. Amerika uşaq ədəbiyyatının yaranma tarixi // Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı. – Bakı: Qafqaz Universiteti, – 29-30 Aprel, – 2016, – s.1197-1198.
6. Amerika uşaq nəsrinin yaranma tarixi // – Baku: Journal of Baku Engineering University, Philology and Pedagogy, – 2017. №2 (1), – s.194-199.
7. Amerikan qrafik romanlarında və komikslərində superqəhrəman // Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri jurnalı, –2018. №9, – s.330-336.
8. Amerika uşaq ədəbiyyatına müxtəlif mədəniyyətlərin təsiri // Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri jurnalı, – 2018. №11, – s.309-316.

9. Children’s Literature Tracks in Disney Films and Azerbaijani Children’s Auditorium // – Canada: Intellectual Archive, – 2018. №7(5), – p.45-49.
10. 1970-1990-ci illər Amerika uşaq dramaturgiyası // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2018. №3 (107), – s.329-331.
11. Contemporary American Children’s Poetry and Translations into Azerbaijani // – Austria, Vienna: The European Journal of Literature and Linguistics, – 2018. №4, – p.8-11.
12. American Multicultural Society’s Integration into Children’s Literature in XX Century // – Norway, Oslo: Norwegian Journal of Development of the International Science, – 2020. № 39(14), – p.3-7.
13. Amerika müasir uşaq dramaturgiyasında Katrin Şultz Millerin “Min durna” əsərinin əsas ideyası // Ümummilli lider H.Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı. – Bakı: Bakı Mühəndislik Universiteti, – 5 iyun – 2020-ci il, – s.220-222.
14. Amerika uşaq ədəbiyyatında Mildred Teylor və “Ağacların Nəğməsi” əsəri // – Bakı: Azərbaycan Universiteti, İpək yolu. Elmi jurnal, – 2020. №3, – s. 119-126.
15. Development of American Children's Drama // – Ukraine, Lviv: Drohobych Pedagogical University, Topical Issues in the Humanities: An Intercollegiate Collection of Scientific Papers of Young Scientists of Ivan Franko, – 2022. – p.132-138.

Dissertasiyanın müdafiəsi 14 oktyabr 2022-ci il tarixində saat $10^{00}$ Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının bazasında yaradılmış BFD 4.12 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 14 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.09.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 44 917 işarə

Tiraj: 100